N29-30 (1076/77) 25 iyul - 7 avqust 2019-cu il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Paytaxtımız "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına ev sahibliyi edir

Son illərdə ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib.

Festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak ediblər.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş Nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşdülər.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir.

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü – idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb.

Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib.

Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Qeyd edək ki, Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb.

XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub EYYUBOV və Avropa Olimpiya Komitələrinin prezidenti Yanes KOSYANÇİÇ çıxış ediblər.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan edib.

## TAP-ın İtaliya hissəsində boruların inşasına başlanılıb



Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) boru kəmərinin inşası çərçivəsində İtaliyada boruların tikintisinə başlanılıb.

Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommunikasiya rəhbəri Lisa Givert deyib.

"İtaliyada, Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib", - deyə L.Givert bildirib.

O əlavə edib ki, iyunun sonuna TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88,5 faizi icra edilib.

Bundan başqa, TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. Həmçinin 3 ölkə üzrə marşrutun 95 faizindən çoxunda torpaq örtüyü bərpa edilib.

Qeyd edək ki, TAP-ın inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur. Bundan başqa, TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

TAP-ın inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq.

"Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

## Azərbaycan biznesə başlama üzrə dünyanın ən yaxşıları sırasına daxil ola bilər

Azərbaycan "Doing Business" hesabatında "Biznesə başlama" meyarı üzrə cari ildə dünyanın ən yaxşıları sırasında yer almağı hədəfləyir. Cari ilin hesabatına görə, bu meyarda dünyanın ən yaxşı onluğu sırasına daxil olan ölkəmiz cari ildə biznesə start verilməsi qaydalarında bir sıra yeniliklər tətbiq etməklə mövcud prosedurları daha da asanlaşdırıb.



Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, 2008-ci ildən sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı "Bir pəncərə" prinsipi ilə nazirlik tərəfindən həyata keçirilir. 2012-ci ildən etibarən isə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı elektron formada həyata keçirilməyə başlanıb. Ötən ilin sonlarında "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda edilmiş dəyişikliklər ölkəmizdə sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində əlverişli mühitin formalaşmasına müsbət təsir göstərərək, yeni rəqəmsal elektron qeydiyyat sisteminin qurulması ilə nəticələnib.

Bu ildən hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi çox sadələşib. İslahatlar nəticəsində prosedurların sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb. Hüquqi şəxs olaraq biznesə başlamaq üçün tələb olunan maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib.

İslahata qədər elektron qeydiyyat yalnız Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilən elektron imza və ya Asan Sertifikat Xidməti Mərkəzi tərəfindən verilən "Asan imza" vasitəsilə həyata keçirilirdi. Cari ilin əvvəlindən başlayaraq hüquqi şəxsin dövlət qeydiyyatı, ƏDV qeydiyyatı və bank hesabının açılması cəmi bir prosedurla icra olunub. Beləliklə, qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, həmçinin qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Yeni xidmətdən yararlanan istifadəçilər elektron imza olmadan "İnternet Vergi İdarəsi"nə daxil olaraq elektron qeydiyyat sistemində FİN kod və mobil nömrə ilə indentifikasiyadan keçirlər.

Hazırda "Doing Business 2019" hesabatında Azərbaycan "Biznesə Başlama" indikatoru üzrə 190 ölkə arasında 9-cu yerdədir.

"Doing Business 2019" hesabatında Azərbaycan üçün "Biznesə Başlama" indikatoru üzrə 3 prosedur, 3,5 gün və 18 manat xərc nəzərdə tutulub.

Lakin cari ildə həyata keçirilmiş islahatlar nəticəsində biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət cəmi 1 prosedur çərçivəsində 0,5 gün ərzində onlayn qaydada qeydiyyata alınır. Beləliklə, müvafiq meyarlarda əhəmiyyətli dəyişikliyə nail olunub. Bu isə onu deməyə əsas verir ki, aparılmış islahat ölkəmizin "Doing Business" hesabatında mövqelərinə müsbət təsir edəcək.

# DÜNYA

## BVF qlobal iqtisadi artım proqnozunu aşağı salıb




Beynəlxalq Valyuta Fondu (IMF) bu il və 2020-ci il üzrə qlobal iqtisadi artım proqnozunu aşağı salıb. Bu barədə fond məlumat yayıb. Bildirilir ki, IMF cari il və gələn ilə dair iqtisadi artım proqnozunu müvafiq olaraq 3,2 faiz və 3,5 faizə endirib. Əvvəlki göstərici ilə müqayisədə hər iki proqnoz 0,1 faiz azaldılıb. Fond buna səbəb kimi qlobal ticarət və "Brexit"lə bağlı yanlış siyasi addımların gözlənilən iqtisadi sıçrayışı daha da irəli apara biləcəyini göstərib. IMF bu il və gələn il Çində iqtisadi artımın müvafiq olaraq 6,2 və 6 faiz, ABŞ-da isə 2,6 faiz və 1,9 faiz olacağını gözləyir.

## Pakistanın nüvə silahı etibarlı mühafizə altındadır

ABŞ-da rəsmi səfərdə olan Pakistanın Baş Naziri İmran Xan FoxNews telekanalının "Qlobal siyasət" proqramının aparıcısı Bret Bayerə müsahibəsində bildirib ki, Qərbin Pakistanın nüvə silahının terrorçuların əlinə keçə biləcəyi ilə bağlı narahatlığının heç bir əsası yoxdur. O əlavə edib: "Pakistan regionda ən güclü orduya sahibdir və onun nüvə silahı da etibarlı mühafizə olunur. Heç bir narahatlığa əsas görmürəm".




Baş Nazir Hindistanla münaqişə və Əfqanıstandakı vəziyyətə də toxunub. Jurnalistin Hindistanla Pakistan arasında nüvə müharibəsi ehtimalına dair sualını cavablandıran İmran Xan deyib ki, bu variant qətiyyən mümkün deyil. "Sizin sualınızda olduğu kimi, əgər Hindistan nüvə silahından imtina edərsə, biz də eyni addımı atacağıq. Çünki bu silahdan istifadə etmək özü-özünü məhv etmək deməkdir", - deyə o vurğulayıb. Baş nazir əlavə edib ki, bir neçə ay əvvəl müharibə həddinə gəlib çatmış iki ölkə arasında sülhə nail olunmasında Vaşinqtonun vasitəçilik missiyasını yüksək qiymətləndirir. Onun sözlərinə görə, 1,3 milyard insanın yaşadığı regionda müharibə böyük fəlakətlərlə nəticələnə bilər.

## Türkiyəyə daimi yaşamağa gələnlərin sayı artıb

Ötən il Türkiyəyə daimi yaşamağa gələnlərin sayı əvvəlki ilə nisbətən 23,8 faiz artaraq 577 min 457 nəfər təşkil edib.

Bu barədə Türkiyənin Statistika Qurumunun açıqladığı məlumatda deyilir. Bildirilir ki, keçən il ölkəyə gələnlərin 110 min 567-si Türkiyə vətəndaşı, 466 min 890-nı isə xaricilərdir. Xaricilər arasında isə 23,6 faizlə İraq vətəndaşları üstünlük təşkil edir.



Ölkəyə köçənlərin əksəriyyəti yaşamaq üçün İstanbulu seçib. Siyahıya əsasən, hesabat ilində Türkiyədən köçənlərin sayı isə 323 min 918 nəfər olub.

Bu da əvvəlki illə müqayisədə 27,7 faiz çoxdur. Bu sıralamada da yenə İraq vətəndaşları 20,6 faizlə çoxluq təşkil edib. Türkiyədən köçən Azərbaycan vətəndaşları isə 7,4 faizlə ikinci yerdə qərarlaşıb.

## ABŞ Çinin neft şirkətinə sanksiya tətbiq edib

ABŞ-ın Maliyyə Nazirliyi Çinin "Zhuhai Zhenrong Company Limited" neft şirkətinin və şirkətin icraçı direktoru Youmin Linin sanksiya siyahısına daxil edildiyini açıqlayıb.

Bu barədə ABŞ-ın Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC) məlumat yayıb.




Bildirilir ki, şirkət və rəhbəri "İrandan neft almaqda davam etdiyi üçün" sanksiya siyahısına salınıb. Onlara ABŞ tərəfindən nəzarət edilən xarici valyuta, bank və ya əmlak əməliyyatları qadağan edilib.

Qeyd edək ki, 1994-cü ildə yaradılan "Zhuhai Zhenrong" neft şirkəti İranla güclü əlaqəyə sahib olan və İran xam neftini Çinə idxal edən ən böyük şirkətlərdən biridir.

## İNŞAATDA İNQİLAB – "MƏTANƏT A"NIN "FASNATURAL" MƏHSULU

Yay yalnız istirahət deyil, həm də tikinti işləri üçün ən əlverişli dövr hesab olunur. İstirahətini təmir-tikinti işlərinə dəyişənlər isə,təbii ki, ilk növbədə keyfiyyətli və sərfəli məhsul axtarışına çıxırlar. Ən çox müraciət etdikləri ünvanlardan biri də "Mətanət A" şirkəti, bu şirkətin yüksək keyfiyyətli məhsulları olur. Belə məhsullardan biri şirkətin respublikamız da daxil olmaqla dünyanın 150-dən çox ölkəsində patentləşdirilmiş, inşaatda inqilab hesab edilən ağlay əsaslı FasNaturalməhsuludur. FasNatural 2011-ci ildə "İlin ixtirası" nominasiyasında "Uğur" milli mükafatına layiq görülüb.

Əhəngdaşı əsaslı FasNatural məhsulundan fasadda dekorativ üzlük plitələrin, bəzək məmulatlarının, eləcə də izolyasiya lövhələrinin üzərinə çəkilməklə paduqaların hazırlanmasında istifadə olunur. Məlumdur ki, evlərin, binaların, hasarların üzlənməsində ağlay daşdan geniş istifadə olunur. FasNatural məhsulunun istehsalında ağlay daşından əsas xammal kimi istifadə edilir və nəticədə ağlay daşla müqayisədə bir çox üstünlüklərə malik yeni məhsul əldə olunur. Daxili və xarici məkanlarda, üzlük, blok, bəzək, arxitektur elementlərinin hazırlanmasında istifadə olunmaqla yanaşı, FasNatural məhsulu həmçinin döşəmədə, tavanda, balkonlarda rütubətə məruz qalan müxtəlif sahələrdə, arxitektur binaların restavrasiyasında istifadə edilir. FasNatural məhsulu, həmçinin sərt küləkli və soyuq regionlarda da binanın yükünü azaltmaq üçün, ən mürəkkəb arxitektur və bəzək işlərində, dəyişkən iqlimli məkanlarda, kiflənmənin




qarşısını almaq üçün istifadə olunur. Qeyd etmək lazımdır ki, yayda, qışda, bir sözlə, istənilən fəsildə otağın temperaturunun 60-70%-nin qorunub saxlanılmasında mühüm rol oynayır. FasNatural ağlaydan fərqli olaraq su keçirmir, şaxtaya davamlıdır, yeni -55°C-də çatlamır, müqaviməti təbii daşdan yüksəkdir.

FasNaturalın üstünlükləri bununla yekunlaşmır. Bu məhsulun ağlaydan ən böyük üstünlüyü binanın və evin yükünü 11 dəfəyə qədər azaltması, eyni zamanda, tikilinin ömrünü uzatmasıdır. FasNatural məhsulunun tikilinin ömrü qədər yaşı var. Bu unikal məhsul nəmişliyin qarşısını 100% almaqla yanaşı, otağın təbii hava, bol oksigenlə təmin olunmasına şərait yaradır. İstifadə zamanı toz yaranmır. Bu isə o deməkdir ki, allergiya təhlükəsi də yoxdur. Elastikliyə malik FasNatural məhsulunun nə çatlamaq, nə də yanmaq təhlükəsi var.

Paytaxtımızda FasNatural məhsulu istifadə olunmaqla bərpa edilən, abadlaşdırılan obyektlər kifayət qədərdir. Buna misal olaraq Milli Dram teatrının üzlənməsi və bərpa işlərini, Səadət Sarayında fasad və daxili detalların işlənib hazırlanmasını, Dövlət Ekologiya postunun fasadını, Mərdəkanda Polis Akademiyasının tədris korpusunun girişini, Nəsimi rayon İqtisad məhkəməsinin fasadını, Şpris zavodunun fasadını və s. qeyd edə bilərik.Kifayət qədər müştəri rəğbəti qazanmış FasNatural məhsulu "Mətanət A" şirkətinin digər strateji məhsulları ilə yanaşı, hazırda Rusiya və digər MDB dövlətlərinə ixrac olunmaqdadır. FasNatural gələcəyinizin rahatlıq təminatıdır.

## Rusiyadan Gürcüstana uçan sərnişinlərin sayı 78,6 faiz azalıb

İyulun 8-dən Rusiya hökumətinin Gürcüstana uçuşlara müvəqqəti qadağa qoymasından sonra hava nəqliyyatı ilə bu istiqamətdə hərəkət edən rusiyalı sərnişinlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 78,6 faiz azalıb. Bu məlumatı Gürcüstandakı iqtisadi vəziyyətin təhlili ilə məşğul olan gürcü TBC Research internet nəşri yayıb.

Məlumatda bildirilir ki, iyulun ikinci həftəsində 2,3 min Rusiya vətəndaşı Tbilisi beynəlxalq aeroportuna gəlib ki, bu da ötənilki göstərici ilə müqayisədə 75,2 faiz azdır. Kutaisi şəhərinin beynəlxalq aeroportu iyulun ikinci yarısında RF-dən 129 nəfərə (68,2 faiz azalma) xidmət göstərib. Batumi beynəlxalq aeroportuna isə həmin ölkədən cəmi 449 sərnişin gəlib (88,1 faiz azalma).

Bundan başqa, iki ölkə arasında yeganə gömrük-buraxılış məntəqəsi olan "Kazbeqi-Yuxarı Lars"dan keçən rusiyalıların sayında da kəskin azalma qeydə alınıb. İyulun ikinci həftəsində bu məntəqə vasitəsilə Rusiyadan Gürcüstana 24,5 min nəfər daxil olub ki, bu da 2018-ci ilin analoji dövrü ilə müqayisədə 5,6 faiz azdır.

## Dunay çayı antibiotiklərlə çirkləndirilib

Dunay çayı daha çox antibiotiklərlə çirkləndirilmiş hesab edilir. Bu da çayın sahillərində dincələn turistlərin sağlamlığı üçün təhlükə mənbəyidir.

Bu qənaətə 72 ölkənin çaylarında tədqiqat aparan və 711 su nümunəsi götürən Helsinki alimləri gəliblər. Alimlərin məruzəsində deyilir ki, Dunay çayının Avstriya hissəsində müxtəlif növ antibiotiklərin, o cümlədən sətəlcəm və bronxitə qarşı istifadə edilən klaritro-



mitsinin olması müəyyən edilib. Kimyəvi maddələrin qatılığı yol verilən həddi dörd dəfə üstələyib. Tədqiqatda bildirilir ki, bu maddələr çayların yaxınlığında çirkab sularının tam təmizlənməməsi səbəbindən sututarlara düşür. Təkcə Avropada çayların 8 faizində, o cümlədən Dunayda antibiotiklərin təhlükəsiz səviyyəsi yol verilən həddi aşıb.

### ALLAH RƏHMƏT ELƏSİN

Professor Elşən Hacızadə Səyyaf İsmayılova qardaşı
ƏNVƏR İSMAYILOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500

# TAP layihəsi qrafik üzrə davam edir

Azərbaycan təbii qazını Avropaya nəql edəcək “Trans-Adriatik” (TAP) boru kəmərinin quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunun 95 faizindən (765 kilometr) çoxunda torpaq örtüyü bərpa olunaraq əvvəlki vəziyyətinə gətirilib. Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.

Qeyd edək ki, TAP layihəsi qrafik üzrə davam edir. Layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88,5 faizi icra edilib. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur.

Xatırladaq ki, TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

# Avstriyada “SOCAR” brendi ilə ilk yanacaqdoldurma məntəqəsi açılıb




Avstriyada “SOCAR” brendi ilə ilk yanacaqdoldurma məntəqəsi (YDM) istifadəyə verilib.

Bu barədə SOCAR-ın İsveçrədəki törəmə şirkəti “SOCAR Energy Holdings” məlumat yayıb. Bildirilir ki, YDM Graz-Eggenbergdə açılıb.

“SOCAR Energy Holdings” Səhmdar Cəmiyyətinin rəhbəri Edqar Baxmann deyib ki, 2012-ci ildə İsveçrə bazarına daxil olan SOCAR sürətlə bu ölkənin aparıcı enerji şirkətlərindən biri kimi inkişaf edib. Hazırda bu təcrübəni Avstriyada da tətbiq etmək istəyirik.

Xatırladaq ki, 2017-ci ildə “SOCAR Energy Holdings” Avstriyanın pərakəndə yanacaq satışı bazarına daxil olaraq “A1” şirkətinə məxsus yanacaqdoldurma məntəqələrini və neft yağlarının ticarəti sahəsində fəaliyyət göstərən “Pronto Oil” firmasını alıb. “SOCAR” brendi yaxın bir neçə ildə tədricən “A1” loqotipini əvəz edəcək. Avstriyanın Ştiriya əyalətinin yanacaqdoldurma bazarında aparıcı rola malik “A1” şirkətinin ölkə üzrə 82 YDM-i fəaliyyət göstərir.

# Artıq ödənilmiş vergilərin qalan məbləğləri 45 gün ərzində vergiödəyicisinə qaytarılır



Vergi Məcəlləsinin 87.1-ci maddəsinin müddəalarına əsasən, vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilmiş məbləğləri onların hesablanmış məbləğlərindən artıq olduqda, artıq ödənilmiş məbləğlər digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına və ya vergiödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edilir.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, məcəllədə başqa hallar müəyyən edilməyibsə, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalan məbləğləri vergiödəyicisinin yazılı ərizəsinə əsasən 45 gün ərzində vergiödəyicisinə qaytarılır.

Bundan başqa, məcburi dövlət sosial sığorta haqqı üzrə artıq ödənilmiş vəsaitin geri qaytarılaraq vergi borcuna aid edilməsi üçün aidiyyəti vergi orqanına müraciət etmək tövsiyə olunur.

# Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsi 106 milyon dolları ötüb

Cari ilin altı ayı ərzində Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 106 milyon ABŞ dolları ötüb.

Bu barədə Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, hesabat dövründə Azərbaycana Belarusdan idxalın həcmi 96 milyon 064 min dollar, Azərbaycandan Belarusa ixracın həcmi isə 9 milyon 971 min dollar olub.

Qeyd edək ki, ötən il Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 204 milyon ABŞ dollarına yaxın olub ki, bu da 2017-ci ilin analoji göstəricisindən təxminən 56 milyon dollar çoxdur.



# Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsində yüksək göstərici qeydə alınıb

Bu ilin birinci yarım ilində Azərbaycanla Ukrayna arasında idxal-ixrac əməliyyatlarının həcmi 410 milyon dolları keçib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 67 milyon dollar çoxdur.

Ukrayna Dövlət Statistika Komitəsindən bildirilib ki, altı ayda Azərbaycandan Ukraynaya 186,6 milyon dollarlıq məhsul ixrac olunub. Azərbaycanın Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 215,9 milyon dollar təşkil edib.

Qeyd edək ki, postsovet məkanında Ukrayna Azərbaycanla ticarət dövriyyəsinin həcminə görə Rusiyadan sonra ikincidir. 2018-ci ildə Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının həcmi 829 milyon dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 18 milyon dollar çoxdur. Ötən il iki ölkə arasındakı ticarət dövriyyəsində son 5 ilin ən yüksək göstəricisi qeydə alınıb.

# “Azərkosmos”un gəlirlərinin 45 milyon dollar olacağı proqnozlaşdırılır



“Azərkosmos” ASC bu ilin birinci yarısında 20 ölkəyə telekommunikasiya və optik peyk xidmətləri təqdim etməklə 21,2 milyon ABŞ dolları gəlir əldə edib. Bu rəqəm ötən ilin analoji dövrünün göstəricisindən 47 faiz çoxdur. İlin sonuna gəlirlərin 45 milyon dollar olacağı nəzərdə tutulur.

ASC-dən bildirilib ki, gəlirin 90 faizi peyk xidmətlərinin ixracından əldə olunub. Xidmət ixracının həyata keçirildiyi əsas ölkələr ABŞ, Fransa, Malayziya, Birləşmiş Krallıq, Almaniya və Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). Ümumilikdə ilin birinci yarısında əlavə olaraq 9 ölkədən olan yeni müştərilərlə müqavilələr rəsmiləşdirilib.

Peyklər vasitəsilə yayımlanan 150-dən çox televiziya və radio kanalının ümumilikdə 20 milyondan artıq auditoriyası var.

“Azerspace-2” peykinin bu ilin fevralında baş tutan uğurlu biznes startı ilə “Azərkosmos” regional peyk xidmətləri bazarında artıq etibarlı və özünü təsdiq etmiş peyk xidmətləri operatoru mövqeyi qazanıb.

Yeni peyk “Azərkosmos”a ABŞ, BƏƏ və Tanzaniyadan olan yeni müştərilərə xidmət göstərmək imkanı yaradıb. Azərbaycan da daxil olmaqla Baltikyanı, Mərkəzi Asiya və Şərqi Avropa regionundan olan 13 ölkənin qurumları “Azersky” – Yer səthinin məsafədən müşahidəsi peykinin təsvirlərindən kənd təsərrüfatı, kartoqrafiya və xəritəçəkmə, ekoloji layihələndirmə, torpaqların təyinatı və monitorinqində istifadə ediblər.

# Azərbaycanla Türkiyənin əmlak idarəçiliyi sahəsində əməkdaşlığı genişlənir




Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov Türkiyədə işgüzar görüşlər keçirib. İlk görüş qardaş ölkənin Ətraf Mühit və Şəhərsalma naziri Murat Kurumla, Sənəd (Tapu) və Kadastrın baş direktoru Ahmet Zeki Adlı ilə baş tutub.

Səfərin məqsədi iki ölkə arasında əmlak idarəçiliyi sahəsində əməkdaşlığı daha da genişləndirmək, birgə təcrübə mübadiləsi aparmaq, yeni layihələr reallaşdırmaqdır.

Komitə sədri qeyd edib ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən son dövrlər yeni layihələr həyata keçirilir, beynəlxalq əməkdaşlıq əlaqələrində, daşınmaz əmlak idarəçiliyi sahəsində yüksək nailiyyətlər əldə edilir.

Vurğulanıb ki, ƏMDK-nın fəaliyyət istiqamətlərindən olan daşınmaz əmlakın qeydiyyatı sahəsində də genişmiqyaslı islahatlar aparılır.

Komitə sədri ölkə başçısı tərəfindən bu il martın 29-da “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanuna edilmiş dəyişiklik nəticəsində dövlət reyestrindən çıxarışların elektron şəkildə əldə edilməsindən danışıb. Həmçinin, qanunvericiliyə 2018-ci ildə edilmiş dəyişikliyə əsasən, çıxarışların 1 iş günü müddətində verilməsi imkanından bəhs edib. Görülən işlərin nəticəsidir ki, Dünya Bankının “Doing Business 2019” sorğu icmalının nəticələrinə görə, “Əmlakın qeydiyyatı” indikatoru üzrə Azərbaycan ümumi reytinq siyahısında 190 ölkə arasında 17-ci yerə layiq görülüb.

Daşınmaz əmlakın kadastrı və coğrafi məlumat sistemi sahəsində Azərbaycanda həyata keçirilən layihələr də Türkiyənin dövlət qurumları rəhbərlərinin diqqətinə çatdırılıb. Bildirilib ki, ölkə başçısının 2016-cı il 7 mart tarixli Fərmanı ilə əmlak idarəçiliyi sahəsində ən iri layihələrdən olan torpaqların elektron kadastr uçotunun qurulması və rəqəmsal xəritələrin hazırlanması işləri həyata keçirilir. Bununla bağlı “Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi” qurulur.

Türkiyənin Ətraf Mühit və Şəhərsalma naziri M.Kurum və Sənəd (Tapu) və Kadastrın baş direktoru Ahmet Zeki Adlı görüşün əhəmiyyətindən danışıblar.

# Azərbaycan ilə Moldova arasında ticarət dövriyyəsinin həcmi açıqlanıb



Cari ilin altı ayında Azərbaycan ilə Moldova arasında ticarət dövriyyəsinin həcmi 2,2 milyon dolları ötüb.

Bu barədə Moldovanın Milli Statistika Bürosundan məlumat verilib.

Bildirilib ki, hesabat dövründə Azərbaycanın Moldovadan idxal etdiyi məhsulun dəyəri 2 milyon dollara yaxın olub. Azərbaycandan Moldovaya isə 253 min dollarlıq məhsul ixrac edilib.

Xatırladaq ki, 2018-ci ildə Azərbaycan ilə Moldova arasında ticarət dövriyyəsinin həcmi 7 milyon dollara yaxın olub.

# Əhməd bəy Ağaoğlunun ömür yolundan səhifələr



**(əvvəli ötən sayımızda)**

Ölkələr arasında iqtisadi münasibətlər, o cümlədən gömrük sistemi Ağaoğlunu ciddi düşündürən məsələlərdən idi. O, hər hansı bir ölkədə yerli sənaye, ticarət və elmin inkişafı üçün gömrük sisteminin böyük rolu olduğunu yazırdı. Bu məsələnin «nə dərəcədə hər millət üçün mühüm olduğunu fəqət bundan düşünmək olar ki, Avropada dövlətlərin ən ümdə varidatı gömrükdən gəlir. Gömrüyün nə cür olmasına hünəri-millətin, sənaye və fününun tərəqqisi bağlıdır». Elə ölkə var ki, yüksək dərəcədə gömrük verir, eləsi də var ki, aşağı dərəcədə. «Bu, baxar hər bir millətin özünün övza və əhvalına. Əgər bir millətdə bir şey, bir malütticarə artıqsa və tərəqqi edibsə, gərək bu növ şeylərin və malların xaricdən daxil olmasına gömrük vasitəsilə mane olunmasın. Bərəks, bir sənət, bir şey, bir malütticarə bir millətdə nadir isə və bu millət istəyirsə ki, bu sənət, bu şey, bu malütticarə öz arasında tərəqqi etsin, - gərək bu gunə şeylərin, bu gunə malütticarələrin düxuluna gömrük vasitəsilə mane olsun. Məsələn, götürək Rusiyanı. Rusiyada taxıl, buğda, arpa çox hüsula gəlir. Odur ki, Rusiya dövləti də taxılın, buğdanın Rusiyaya düxuluna gömrük vasitəsilə mane olmur, bu cür şeylərə az gömrük qoyur. Lakin Rusiyada hərir parçalar, maşınlar və bu gunə şeylər tərəqqi etməyib; odur ki, bu gunə şeylərin öz millətində tərəqqi etməsi üçün Rusiya dövləti bu gunə şeylərə artıq gömrük qoyur».

Bu iqtisadi-ticarət prinsipi baxımından Türkiyənin vəziyyətini təhlil edən müəllif göstərir ki, «kapitulyasyonun bərəkətindən», yəni bu ölkədə xarici kapitalın ağalıq etməsi nəticəsində «xaricdən gələn əşya, hər nə olursa-olsun, yüzdə beş gömrük verir. Daha millətin özünün əhvalı, sənaye və ticarəti, ziraət və fəlahəti nəzərə alınmır. Bu səbəbdən xəzinə itirməkdən başqa millətin arasında nadir olan sənaye və fünun da tərəqqi edəməyir. Xaricidən gələn əşya ucuzluğu ilə milli sənaye və fününun tərəqqisinə mane olmaqdadır. Odur ki, indiyədək Türkiyədə bir böyük zəngin adam, böyük şərakətlər, kompaniyalar vücuda gəlməyir».

Məqalələrdən bir neçəsində Qərb imperializminin başqa xalqları iqtisadi tabelik və əsarətdə saxlamaq siyasətindən Hindistan kimi böyük bir ölkənin də yaxa qurtara bilmədiyi göstərilir.

Nəhayət, I Dövlət Dumasında müzakirə olunmuş büdcə məsələsinə Ağaoğlunun münasibəti haqqında bir neçə söz.

Ən əvvəl qeyd edək ki, cəmiyyətdə maliyyə əməliyyatları və s. məsələlər haqqında M.F.Axundzadənin «Kəmalüddövlə məktubları» və H.Zərdabinin publisistikasında bır sıra elmi mülahizələr söylənməsinə baxmayaraq, siyasi iqtisadın bu sahəsi Azərbaycan ictimai fikrində ancaq XIX əsrin axırı, XX əsrin əvvəlində ən çox çar dumalarının işi ilə əlaqədar əsaslı müzakirə mövzusu olmuşdu. Düzdür, Ağaoğlu bu sahədə mütəxəssis deyildi. Bununla bərabər, Dumanın müzakirəsi və Azərbaycan milli iqtisadiyyatının qarşısına çıxan çətinliklər, bir çox məsələlər kimi, büdcə məsələsini də onun diqqət mərkəzinə gətirmişdi. Duma müzakirələri zamanı «Büdcə nədir?» adlı xüsusi bir məqalə yazıb çap etdirməsi bununla izah oluna bilər. Maliyyə, o cümlədən büdcə mövzusu Ağaoğlunu öz-özlüyündə və təkcə I Dövlət Duması ilə əlaqədar yox, onlardan daha artıq Şərqin aktual problemlərindən biri kimi maraqlandırmışdır. Bunu o, lap məqalənin əvvəlindəki qeydində bildirir; «Hökumət nədir, müvazinə, müsahibə nədir, xəzinə padşahındır, hər nə istəsə edəbilər, hər yerə xərc edər, hər kimə istəsə bağışlar, daha kimin haqqı, ixtiyarı var ki, ondan hesab istəsin, onun əməllərinə sərkeşlik etsin? Budur, təxminən, biz məşriqilərın xəzinə, vergi, maliyyə barəsində əqidəmiz. Halbuki, bu əqidə əqəllən müfsid və bibina olmaqlabərabər, şəri-şərifə və əhadisi-nəbəviyə və əmalı-xülatəyi-raşidinə də bilmərrə ziddir». «İrşad» oxucularının ümumi elmi səviyyəsini, ən əvvəl onlardan çoxunun iqtisadi qanunlar haqqında təsəvvürlərinin ibtidailiyini nəzərə alan publisist yuxarıda qoyduğu suallardan bir neçəsinə cavab verir. İzahat «xəzinə beytül-maldır, yəni millət camaat malıdır» müddəası ilə başlanır. Sonra bütünlüklə demokratik maliyyə nəzəriyyəsinə müvafiq olan belə bir fikir yeridilir ki, «camaatdan alınan vergilər gərək camaatın özünün ehtiyacına, dərdlərinə sərf olunsunlar; camaat rəislərinin, hakimlərinin fəqət onlara müəyyən olunan mərsumatlara ixtiyarları və haqları vardır, ondan artıq sərf etsələr, millətə xəyanət və hüquqi-bəşəriyyəyə təcavüz etmiş olurlar».

Ağaoğlundan yazan müəlliflərin bir çoxu onu islampərəst olmaqda, bir çox hallarda zəmanə problemlərinin həlli üçün də islam tarixinə, şəriətə, fiqhə müraciət etməkdə təqsirləndirmişlər. Halbuki, belə bir ittiham tarixilik prinsipinə ziddir. Ağaoğlunun dövründə, ümumiyyətlə müsəlman Şərqində, o cümlədən onun Vətənində bir çox islam ehkam və qanunlarının hələ də qüvvədə olduğu nəzərə alınarsa, bu münasibətin yanlışlığı daha aydın olar. Sultanı, eyni zamanda, xəlifə olan Türkiyə öz yerində, İran və Əfqanıstan kimi ölkələr üçün islam hüquqşünaslığı hökmlərinin əsas götürülməsi isə tamamilə təbii idi. Odur ki, Ağaoğlu iqtisadi məsələlərə dair mühakimələrində tez-tez Əli, Ömər və başqa xəlifələrin «beytül-mal»a münasibətini nümunə gətirirdi. O yazırdı ki, zaman keçdikcə bu ənənələrin hər addımda pozulması ölkə iqtisadiyyatında hərc-mərclik yaratmaqdan və xəzinəni boşaltmaqdan savayı cəmiyyətin əxlaqına da mənfi təsir göstərmişdir. Biz yolumuzu azıb, «islama əks olaraq istibdadın idareyi-keyfə-mayəşasının pəncəsinə giriftar ol-muşuq». Nəticədə «canlarımıza, mallarımıza, irzü şanımıza təcavüzlər edildi». Konkret misal olaraq o göstərir ki, Tehranda, Kabildə, İstanbulda beytül-maldan gələn pullar xəfıyyələrə, casuslara, əcnəbilərə xərc olunur. Padşah saraylarında iyirmi milyonlarca fəqət hərəmlərə xərc olunur. Millətin zəhmət boyunduruğu altında qan-tər ilə qazandığı quruşlar və qranlar o hakimin - bu hakimin, o xainin -bu xainin ciblərinə dolur».

Bütün bunların cəzasını kim çəkmişdir, kim çəkir? Cavab birdir: millət! Nəsrəddin şah ömrü boyu və Müzəffərəddin şah isə hökmranlığının ilk illərində «İranın cəmi varidat yerlərini girov qoyub, İranı əcnəbilərə fəda edib, pullar əxz edib, Avropa tamaşaxanalarında xərc edirdilər. Millətin vergiləri bu növ şeydə xərc olunub da millət özü körpüsüz, yolsuz, məktəbsiz, məhkəməsiz, nizamsız, fabrikasız, zavodsuz, sənətsiz, elmsiz qalıb bir tərəfdən gün-gündən xaricilərə möhtac olub, o biri tərəfdən də səfil, sərgərdan qalıb, kəmalı-zillət və xarlıqla məhv olmağa şüra etdi».

Sözün əsl mənasında bir qərbçi-maarifçi olan Azərbaycan mütəfəkkirinin tənqidi nəticə etibarilə Avropadan əxz olunmuş konkret siyasi və iqtisadi proqrama gəlib çıxır: «...gərək millətin vergisi millətin öz dərd-ehtiyaclarına sərf olunsun. Bundan ötrü hər təzə ilin əvvəlində hökumət millət vükəlasma keçmiş ildə olan məxaric və mədaxilin hesabını verir və gələcək il üçün mədaxil və məxaric föhrüstü qayırıb, hər bir maddə üçün məclisi-vükəladan izn istəyir. Bu qaydaya «büdcə qaydası» deyilir. Bu qayda, bu üsul üsuli-məşrutə və hürriyətlə idarə olunan tayfaların arasında hürriyyətin və məşrutiyyənin ən əvvəlinci əsası hesab olunur». Bu qanun bir çox cəhətdən əhəmiyyətlidir: millətin bir qəpiyi də nahaq işlənmir, məmurların və hətta padşah nəslinin maaşı «məclisi-vükəla tərəfindən təsdiqlənmiş səyaq ilə verilir. Daha ondan artıq heç kəsin ixtiyarı yoxdur ki, bir qəpik belə izafə xərc etsin».

Ən əhəmiyyətlisi budur ki, bu quruluşda «camaatın verdiyi verginin yüzdə doxsanı özünə - yollara, məktəblərə, sənayeyə, məhkəməyə, mədarisə, ziyarətə, ticarətə qayıdır. Növbənöv darüleytamlar, darüşşəfalar, qocalar, füqəra övrətlər üçün xanələr güşad olunur». Xalq Rusiya Dövlət Dumasından da belə bir maliyyə qanunu yaratmağı gözləyir. Lakin hökumət buna razı deyil, «...əgər büdcənin ixtiyarı məclisdə (deputatlar məclisi nəzərdə tutulur - Ə.M.) olmasa, millətin hürr və azad olması fəqət ad ilə olacaq; mənada bu kölgədən başqa bir şey olmayacaq; vəzirlər və hökumət yenə sabiqdəki kimi hakimi-mütləq olub, hər nə istəsələr edəcəklər, toqquşma məcburi olacaq».

Bu surətlə Ağaoğlu I Dumanın müzakirəsinə verilmiş proqamı böyük diqqət və rəğbətlə şərh etməklə özünün də ona yüksək qiymət verib, ölkədə bu istiqamətdə qanun-qayda bərqərar olacağına ümid bəslədiyini göstərmişdi.Amma çox keçmədən çarizmin belə təşəbbüsləri ilk addımdan boğub məhv etdiyi meydana çıxanda, Rusiyanın bütün demokratik xadimləri kimi, o da yanıldığını dərk eləmişdi.Nə azadlıq, nə hüquq, nə torpaq? Hamısı boş vədlər imiş!..

O zaman Rusiya məbuatı oxuculara kapitalizmin inkişafı ilə əlaqədar məsələlərə dair müxtəlif publisist formalarda məlumat verirdilər. Belə materiallara kütləvi Azərbaycan oxucusunun da böyük ehtiyacı vardı. Bunu nəzərə alan Ağaoğlu, öz azərbaycanlı həmkarları kimi, sənaye kapitalizminin inkişafı ilə əlaqədar mövzulara publisistikasında müəyyən yer ayırmalı olmuşdu. Həmin məqalələrdə çox vaxt Qərb və Rusiya ilə Şərqin bu baxımdan müqayisəsi verilir, ikincinin geriliyi təəssüflə iqrar edilirdi.

**ardı var...**

# Fondun bayram tədbirində yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb




İyulun 22-də "Altun Saray" istirahət mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Milli Mətbuatının yaranmasının 144 illiyi ilə əlaqədar elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, diplomatik korpus nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri, o cümlədən müsabiqədə birinci yerə layiq görülmüş jurnalistlər iştirak ediblər.

Tədbirin əvvəllində aparıcılar Azərbaycan Milli Mətbuatının yaranmasından, "Əkinçi" qəzetinin, eləcə də o dövr mətbu nəşrlərinin cəmiyyətin inkişafında oynadığı mühüm roldan danışıblar.

Sonra söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. İcraçı direktor milli mətbuatın yaranmasının 144-cü ildönümü münasibətilə onlara səmimi təbriklərini çatdırıb. Azərbaycan mətbuatının ölkə rəhbərliyinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayan icraçı direktor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nın təsdiq edildiyini və konsepsiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını qeyd edib.

Çıxışını davam etdirən Vüqar Səfərli Fondun 22 iyul - Milli Mətbuat Günü münasibətilə keçirdiyi ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə də məlumat verib. Bildirib ki, 19 istiqaməti əhatə edən müsabiqəyə 56 kütləvi informasiya vasitəsindən 142 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib, Müşahidə Şurasının qərarı ilə 111 nəfər jurnalist qalib elan edilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov bildirib ki, mətbuatımızın 144 ilinin 27 ili müstəqillik dövrünə aiddir. Bu, bir reallıqdır ki, 27 illik tarixə malik müstəqil mediamız ölkəmizi dünyada layiqincə təmsil edir və bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

Əli Həsənov mətbuatımızın bugünkü reallığının Azərbaycan dövlətinin mediaya, jurnalistlərə dəstəyinin tam şəffaflaşdırılması, sistemləşdirilməsi və ardıcıl olaraq həyata keçirilməsindən ibarət olduğunu vurğulayıb. Bu müddətdə Azərbaycan mediasına 50 milyon manata yaxın yardım göstərilib.

Daha sonra müsabiqənin qaliblərinə mükafatlar təqdim edilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək Həsən bəy Zərdabi yolunun davamçıları olan Azərbaycan jurnalistlərini milli mətbuatımızın 144 illiyi münasibətilə təbrik edib, "Əkinçi"dən bəri keçən mətbuatımızın tarixinə qısa nəzər salıb, ölkəmizdə jurnalistlərə göstərilən dövlət qayğısının önəmini vurğulayıb.

Daha sonra jurnalistika sahəsində xüsusi xidmətlərinə görə Mətbuat Şurasının mükafatları sahiblərinə təqdim olunub.

# ARDNF media nümayəndələrini mükafatlandırıb



2019-cu il iyul ayının 19-da Azərbaycan Respublikası Dövlət Neft Fondunda (ARDNF) ARDNF-nin yaradılmasının 20-ci ildönümü münasibətilə "Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında" mövzusunda yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirilmiş analitik yazı müsabiqəsinin nəticələrinin elan olunması və qaliblərin mükafatlandırılması ilə bağlı tədbir təşkil edilib.

Tədbirdə Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, ARDNF-nin İcraçı direktoru Şahmar Mövsümov, Mətbuat Şurasının üzvləri, müsabiqəyə qatılan jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ş.Mövsümov iştirakçılara ARDNF-nin 20 illik fəaliyyəti barədə məlumat verib. Müsabiqənin nəticələrindən danışan İcraçı direktor müsabiqəyə təqdim edilən 31 yazının Mətbuat Şurası və ARDNF-nin nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirildiyini bildirib. Ş.Mövsümov qeyd edib ki, bir sıra yazıların qiymətləndirmə nəticələri yaxınlıq və ya eynilik təşkil etdiyindən mükafatlandırmada müvafiq dəyişikliklər edilmişdir. Bununla da mükafatlandırmada 1 nəfərə 1-ci yer, 2 nəfərə 2-ci yer, 3 nəfərə 3-cü yer və 10 nəfərə həvəsləndirici mükafatın təqdim edilməsi qərara alınıb.

Tədbirdə çıxış edən Əflatun Amaşov bildirib ki, jurnalistlər üçün keçirilən belə müsabiqələr jurnalistikada ixtisaslaşmanı dərinləşdirir. Azərbaycan milli mətbuatının ictimai həyatdakı roluna toxunan Ə.Amaşov onu da qeyd edib ki, 22 iyul - Milli Mətbuat günü öncəsi jurnalist əməyinin qiymətləndirilməsi ümumilikdə mətbuatımıza verilən dəyərdir. Buna görə də Neft Fonduna təşəkkürünü bildirib.

Sonda müsabiqə qaliblərinin adları açıqlanıb və onlara mükafatlar təqdim edilib.

Eyni zamanda, həvəsləndirici mükafat alanlar arasında "İqtisadiyyat" qəzetinin əməkdaşı Mətanət Hüseynova da var.

# Fondun və Dövlət Statistika Komitəsinin təşkilatçılığı ilə yeni müsabiqə elan olunub



İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin təmsilçiləri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəhbərliyilə görüşüb, qurumun fəaliyyətilə yaxından tanış olublar.

Tədbirdə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Fondun icraçı direktoru Vüqar Səfərli, eləcə də ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər. Komitə sədri vurğulayıb ki, görüşün təşkilində məqsəd əhalinin siyahıyaalınması prosesi ilə bağlı media nümayəndələrinə və ümumən ictimaiyyətə dolğun informasiya vermək, onları görülmüş və qarşıda görüləcək işlərlə bağlı geniş məlumatlandırmaqdır. Komitə sədri qeyd edib ki, siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək.

Sonra söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. İcraçı direktor mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin, o cümlədən fərdi jurnalist yazıları müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Vüqar Səfərli bildirib ki, Dövlət Statistika Komitəsində təşkil olunmuş sayca ikinci görüş KİV-lərlə Komitə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, ictimaiyyətin əhalinin siyahıyaalınması prosesi ilə bağlı görüləcək işlər barədə dolğun şəkildə məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

İcraçı direktor bildirib ki, Fondun və Dövlət Statistika Komitəsinin birgə təşkilatçılığı ilə iyulun 22-dən oktyabrın 22-dək "Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi nəzərdə tutulur.

# Добыто 18,8 миллиона тонн нефти и 12 млрд. кубометров товарного газа



За полгода в Азербайджане добыто 18 млн 799,3 тыс. тонн сырой нефти (включая газовый конденсат) и 17 млрд 312,2 млн кубических метров природного газа. Из этого объема 11 млрд 989,7 млн кубометров – товарный газ.

Как сообщили в Государственном статистическом комитете, за 6 месяцев общий объем производства в добывающей промышленности составил 16,4 млрд манатов, увеличившись на 0,1 процента по сравнению с аналогичным периодом прошлого года.

Добыча нефти в стране снизилась на 3 процента, а добыча природного газа увеличилась на 35 процентов.

# Центробанк привлек у азербайджанских банков 150 млн. манатов

22 июля состоялся очередной депозитный аукцион Центрального банка Азербайджана (ЦБА).

Как сообщили в ЦБА, на депозитном аукционе Центробанк привлек у азербайджанских банков 150 миллионов манатов. Спрос на аукционе составил 827,9 миллиона манатов. Средневзвешенная процентная ставка по депозитным сделкам, заключенным в рамках аукциона, составила 6,51 процента.

# Импорт черных металлов и изделий из них сократился



За 6 месяцев этого года в страну импортировано 398 тыс. 521 тонна черных металлов и изделий из них.

Информацию об этом распространил Государственный таможенный комитет.

За отчетный период стоимость черных металлов и изделий из них составила 459 млн 804 тыс. долларов США.

Напомним, что за аналогичный период прошлого года в Азербайджан было импортировано 457 тыс. 532 тонны черных металлов и изделий из них на сумму 520 млн 342 тыс. долларов США.

# Суда ASCO привлечены к прокладке трубопроводов на месторождении «Абшерон»

Продолжаются работы по прокладке трубопроводов на газоконденсатном месторождении «Абшерон», расположенном в азербайджанском секторе Каспийского моря.

Как сообщили в ЗАО «Азербайджанское каспийское морское пароходство» (ASCO), к работам по прокладке трубопроводов привлечены буксирно-снабженческое судно «Аура» и судно-трубоукладчик «Сулейман Везиров», принадлежащие ЗАО.

# Прогнозируемый доход «Азеркосмоса» составит 45 млн. долларов США

По итогам первой половины текущего года ОАО «Азеркосмос» предоставил телекоммуникационные услуги и услуги по дистанционному зондированию Земли 20 странам мира, получив общий доход в размере 21,2 млн долларов США. Этот показатель на 47 процентов выше показателя за аналогичный период прошлого года. К концу 2019 года прогнозируется получение дохода в размере 45 миллионов долларов США.

Как сообщили в ОАО, 90 процентов общего объема доходов получены от продажи спутниковых услуг зарубежным странам. Основные страны, которым предоставляются спутниковые услуги, - США, Франция, Малайзия, Великобритания, Германия и Объединенные Арабские Эмираты (ОАЭ). В общем, в течение первого полугодия 2019 года «Азеркосмос» подписал контракты с новыми клиентами из девяти стран. Посредством телекоммуникационных спутников компании «Азеркосмос» транслируются более 150 телевизионных и радио каналов, имеющих аудиторию более чем в 20 млн человек.

Успешным бизнес-запуском спутника Azerspace-2 в феврале этого года «Азеркосмос» утвердился в позиции надежного оператора спутниковых услуг на региональном рынке. Новый спутник создал возможности для обслуживания новых клиентов из США, ОАЭ и Танзании.

# Увеличился товарооборот между Азербайджаном и Грузией




Товарооборот между Азербайджаном и Грузией в этом году превысил 200 млн долларов США. В первом полугодии текущего года товарооборот между двумя странами составил 508 млн 899,1 тыс. долларов.

Об этом говорится в предварительном отчете Национального статистического управления Грузии.

В январе-июне Грузия экспортировала в Азербайджан товаров на сумму 211 млн 326,8 тыс. долларов. Это на 3,7 процента больше, чем за аналогичный период прошлого года.

В первом полугодии Грузия импортировала из Азербайджана товаров на сумму 297 млн 572,3 тыс. долларов, что на 3,1 процента меньше, чем за аналогичный период прошлого года.

В отчетный период доля Азербайджана в общем товарообороте соседней страны составила 8,5 процента.

Азербайджан был третьим по величине торговым партнером соседней страны после Турции и России.

Азербайджан, доля которого в общем экспорте Грузии составляла 11,9 процента, был вторым после России экспортным партнером соседней страны.

Отметим, что за отчетный период внешнеторговый оборот Грузии составил 5 млрд 968,3 тыс. долларов, что на 0,6 процента меньше, чем в предыдущем году.

## В МИРЕ

# Eni объявила о начале добычи нефти на египетских месторождениях



Крупнейшая итальянская нефтегазовая компания «Eni» сегодня объявила о начале добычи нефти на египетских месторождениях «Мелиха» в Западной Сахаре.

Согласно сообщению компании, объем добычи составляет 5000 баррелей в день. Ожидается, что в сентябре нынешнего года добыча нефти на этих месторождениях достигнет 7 тысяч баррелей в сутки.

Следует отметить, что нефтегазовый концерн «Eni» объявил об открытии месторождений «Мелиха» в Западной Сахаре в начале мая прошлого года.

# Россия рассчитывает на сохранение в 2020 году высокого спроса на нефть



Минэнерго России надеется на сохранение в 2020 году высокого спроса на нефть на мировом рынке, как и в предыдущие годы.

Об этом сообщил журналистам министр энергетики РФ Александр Новак.

«Рынок будет, мне кажется, обеспечен ресурсами. Спрос во многом будет зависеть от экономических взаимоотношений между крупными державами, и здесь мы видим позитивные сдвиги. Поэтому мы надеемся, что спрос будет такой же большой, как и в предыдущие годы», - сказал Новак.

Ранее Международное энергетическое агентство (МЭА) спрогнозировало переизбыток нефти на мировом рынке в 2020 году, несмотря на усилия стран ОПЕК+ ограничить добычу.

Отвечая на вопрос, нужно ли в связи с прогнозом МЭА пересматривать квоты по добыче нефти в рамках сделки ОПЕК+, Новак сказал: «Я бы сейчас не делал таких точных прогнозов, потому что на рынке ситуация постоянно меняется. Очевидно, что сейчас мы имеем достаточно сбалансированный рынок - вы видите, что волатильность невысокая. Но, опять же, много непредсказуемых ситуаций, которые могут эту ситуацию изменить. Будем смотреть, мониторить, как ситуация будет развиваться, и принимать соответствующие решения».

В МЭА ожидают, что рост предложения от стран «не ОПЕК» в 2020 году может ускориться до 2,1 млн баррелей в сутки (в 2019 году - 2 млн баррелей в сутки), и главным драйвером этого станет рост добычи нефти в США. При этом спрос на нефть стран ОПЕК в начале 2020 года может упасть до 28 млн баррелей в сутки, что является минимумом за 17 лет.

# В Китае появится первый в мире город-лес



В предместье китайского города Лючжоу, вдоль реки Люцзян, началось строительство первого в мире лесного города, в качестве ответа на изменение климата и загрязнение окружающей среды.

Полностью покрытый зеленью и деревьями, будущий город-лес сможет ежегодно поглощать из атмосферы свыше 10 000 тонн углекислого газа и 57 тонн загрязняющих веществ, производя при этом около 900 тонн кислорода.

Площадь города составит 175 га и он рассчитан на 30 000 жителей.

В планировке предусмотрены как жилые, так и деловые районы, зоны отдыха, больница и две школы. Также сообщается, что с Лючжоу город свяжет скоростная электричка.

Для покрытия города зеленью будет высажено 40 000 деревьев и почти миллион растений. Кроме этого, лесной город будет сам обеспечивать себя электроэнергией - причем тоже «зеленой», из геотермальных источников и солнечного света.

# Прибыль Kia Motors выросла в первом полугодии в 1,5 раза

Чистая прибыль южнокорейской автомобилестроительной компании Kia Motors выросла в первом полугодии в 1,5 раза в годовом выражении до 1,154 трлн корейских вон (981 млн долларов). Об этом свидетельствует отчетность компании.

Выручка составила 26,951 трлн вон (23 млрд долларов, + 1,2 процента). В первом полугодии компания продала 1,353 млн автомобилей ( 2,4 процента в годовом выражении). При этом продажи в Южной Корее снизились на 9,3 процента, в остальных странах - на 0,8 процента.

В том числе чистая прибыль во II квартале составила 505,4 млрд вон (429 млн долларов), что почти в 1,5 раза выше прошлогоднего показателя. Выручка выросла на 3,2 процента до 14,507 трлн вон (12,3 млрд долларов). Продажи снизились на 5 процентов в годовом выражении до 702 733 авто. Продажи внутри страны упали на 10,9 процента, в остальных странах - на 3,6 процента. Kia Motors - южнокорейская автомобильная компания, основана в 1944 году.



# TURİZMİN MAHİYYƏTİ, FUNKSİYALARI VƏ TƏSNİFATI

**(əvvəli ötən sayımızda)**

2. Sosial-iqtisadi funksiyalar:
- asudə vaxtdan səmərəli istifadə olunması;
- ***əhalinin məşğulluğunun təmin edilməsi;***
- ***işçilərin həyat səviyyəsinin yüksəldilməsi.***

Digər bir təsnifata görə turizmin funksiyaları üç qrupa bölünür:

1. İqtisadi funksiya: (turistlərin tələb və təkliflərinin nisbəti):
- ***əsas funksiyalar: yerdəyişmə, yerləşmə;***
- ***əlavə funksiyalar: mədəni-əyləncə idarələri, ticarət xidmətləri, rabitə, bankomat;***
- ***dolayı funksiyalar: əhalinin məşğulluğu.***

2. Sosial funksiya: həyati qüvvələrin tamamlanması, istirahət hüququ.

3. Humanitar funksiya: hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması, xalqlar dostluğu, mədəniyyət abidələrinin qorunması,əxlaqi, mədəni tələbatların ödənilməsi.

Kompleks xidmətə aviadaşımalar, transfer, mehmanxanada yerləşmə, qidalanma, ekskursiya xidməti və digər xidmətlər daxildir.

Xüsusi diqqət yüksək servis xidmətini və yüksək qiyməti (Limuzində transfer, oteldə təntənəli görüş, prezident nömrəsi və s.) tələb edir.

Aktivlik dərəcəsinə görə aktiv və passiv turizmi ayırmaq olar. Aktiv turizm ondan ibarətdir ki, turist özü məqsədi - obyektləri və marşrutu seçir. Aktiv marşrutlar iki meyarla müəyyən olunur:
- səyahət rayonu əlçatan olmalı;
- marşrut qısa, maraqlı və kifayət qədər sadə olmalıdır.

Aktiv turizmə alpinizm, raftinq, trekkinq (dağ cığırları ilə piyada yeriş) daxildir.

Səyahətə və səfər zamanı rahatlığa təsir edən əlverişli şərait turizm infrastrukturu ilə təmin olunur. Turizm infrastrukturu dedikdə istehlakın rahatlığı, eləcədə əlverişli fürsətlər təqdim edən müəssisələr kompleksi başa düşülür.

Turizm infrastrukturu mürəkkəb tərkibli predmetdir. O, özündə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən çoxsaylı prosesləri və obyektləri ehtiva edir. Onları aşağıdakı meyarlar üzrə fərqləndirmək olar:

*1. Coğrafi cəhətdən yerləşməsinə görə beynəlxalq, milli, regional, şəhər infrastrukturu fərqləndirilir;*
*2. İş sferasına görə texnoloji, idarəetmə və sosial infrastruktur ayrılır;*
*3. Vaxt prinsipinə görə sinxron, üstün və ləngidici infrastruktur fərqlənir.*

Turizmin funksiyaları onun bir sıra növlərini doğurur. Turizm məqsədlərinə görə aşağıda növlərə bölünür:



*1. **Rekreasiya turizmi.** Bura aiddir: tamaşa, əyləncə proqramları, turizm-sağlamlaşdırıcı tədbirlər, maraqlar üzrə məşğuliyyət;*
*2. **İdman turizmi.** Bu, su, xizək, dağ turizmini əhatə edir və bu və ya digər ölkələrdə və regionlarda idman tədbirlərinin keçirilməsi üçün səfərləri nəzərdə tutur;*
*3. **Müalicə-sağlamlaşdırıcı turizm.** Bura sadəcə sağlamlığa aid tələbatı yox, həm də turizmin digər funksiyaları ilə bağlı məsələləri əlavə etmək olar;*
*4. **Mədəni-maarifləndirici turizm** müxtəlif istiqamətlər üzrə biliklərin genişlənməsinə olan tələbata əsaslanır;*
*5. **Nostalji turizmin** əsasında insanın və onun ailəsinin fərdi tərcümeyi-halının hadisələri ilə bağlı yerlərə səfər etməsinə olan tələbat durur;*
*6. **Əyləncə (ekstremal) turizmi** müxtəlif kəskin vəziyyətlərdə insanın öz imkanlarının sınağa çəkilməsinə olan tələbatların ödənilməsini tələb edir. Bura aiddir: gəzinti ekspedisiyaları, safari turları (ov, balıq tutma), yaxtinq (dəniz və çayla səyahət);*
*7. **Dini turizm** (zəvvarlığı daxil edən) müxtəlif konfessiyadan olan insanların dini tələbatlarına əsaslanır;*
*8. **Missioner turizm** bu və ya digər mənəvi dəyərlərin yayılması ilə öz mənəvi təyinatını daha tam reallaşdırdığı insanın tələbatı ilə bağlıdır;*
*9. **Hadisə turizmi** insanın hər hansı bir konkret tədbirlərə getmək tələbatının ödənilməsi ilə əlaqədardır;*
*10. **Kommunikasiya turizmi** şəxslərarası əlaqələrdə insanların tələbatlarını ödəyir (həyat yoldaşını, kolleksiya tərəfdaşının axtarışı);*
*11. **Ekoloji turizm** təbiəti mühafizə fəaliyyətində iştiraka, qoruq ərazilərinə səfər etməyə əsaslanır;*
*12. **Təhsil turizmi** təhsil məqsədilə, məsələn, dil öyrənmək üçün səyahətdir;*
*13. **Sosial turizm** dövlət tərəfindən sosial məqsədlərə ayrılan vəsaitlərdən subsidiyalaşan səyahətdir.*
*Sadalanan növlərdə işgüzar turizmin adı yoxdur (məsələn reklam turizmi). İşgüzar rəqiblərin müəyyən edilməsi, qorunub saxlanması məqsədilə səfər, adətən, ödənilən fəaliyyət kimi həyata keçirilir ki, bu da "Turizm haqqında" Qanuna ziddir.*

Ərazi əlamətlərinə görə daxili və beynəlxalq turizmi fərqləndirmək olar. Beynəlxalq turizm özü də gəlmə və getmə turizminə bölünür.

Yaşa görə turizm uşaq, gənclər və yetkin növlərə bölünür.

Səyahət müddətinə görə qısamüddətli, daimi, davamlı və mövsümi səyahətləri ayırmaq olar.

Təşkilati üsula görə səfərlər mütəşəkkil və xüsusi (qeyri-mütəşəkkil) növlərə ayrılır.

Yerdəyişmə dərəcəsinə görə aviasiya, dəmir yolu, avtoturizm, avtobus, dəniz kruizi, çay kruizi, piyada və veloturizm fərqləndirilir.

Müstəqillik dərəcəsinə görə fərdi (FİT) və qrup (Group) turizmini ayırmaq olar.

Təklif tipinə görə kompleks xidmət (packade tour), bütün daxildir (all-inclusive), klub istirahəti (club holidays), xüsusi diqqət (VİP) turizm növləri fərqləndirilir.

Bundan əlavə, bəzi mənbələrdə və ədbiyyatlarda turizmin dəyər növləri də fərqləndirilir:
- ***Əlillik turizmi - məhdud fiziki imkanları olan insanlar üçün nəzərdə tutulan rekreasiya turizmi növüdür;***
- ***Virtual turizm – müasir kompyuter texnikası və komunikasiya şəbəkələrindən istifadə etməklə virtual turları təşkil edən və ya həyata keçirən fiziki və hüquqi şəxslərin fəaliyyət növüdür;***
- ***İşgüzar turizm işgüzar məqsədlərlə, peşə və kommersiya maraqlarına görə səyahətdir;***
- ***Etnik turizm – doğulma yerinə və ya ailənin mənşəyinə, eləcədə qohumların və ya yaxınların yaşayış yerinə səfər etmək məqsədi güdür;***
- ***Tranzit turizmi - turistlərin yerdəyişməsidir ki, onlar üçüncü ölkələrdə reyslərin qovuşdurulması üçün yalnız kiçik dayanacaqla son təyinat yerinə gedirlər.***

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Kənd təsərrüfatı sahəsində əməkdaşlıq müzakirə edilib



Ankarada Azərbaycan, Gürcüstan və Türkiyə Kənd Təsərrüfatı nazirliklərinin nümayəndə heyətləri arasında üçtərəfli görüş keçirilib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, görüşdə tərəflər kənd təsərrüfatının müxtəlif sahələri üzrə qarşılıqlı əməkdaşlığın bugünkü vəziyyəti və gələcək perspektivlərini müzakirə edib, hər üç ölkədə kiçik və orta fermer təsərrüfatı sahiblərinin qorunması və inkişafı istiqamətində görülən işlərdən danışılıb.

Müzakirələr zamanı gələcəkdə kiçik və orta fermer təsərrüfatlarının daha da inkişaf etdirilməsi üçün birgə tədqiqatlar aparılması və bu sahədə hər bir ölkədə əldə edilmiş uğurlu təcrübənin birgə istifadəsi barədə razılıq əldə edilib.

Bildirilib ki, ölkələrimiz arasında digər sahələrlə yanaşı, aqrar sektor üzrə də yüksəksəviyyəli əməkdaşlıq mövcuddur. Belə görüşlər hər üç ölkədə kənd təsərrüfatı sahəsinin daha da inkişafı üçün təcrübə mübadiləsi və yeniliklərin tətbiqi baxımından əhəmiyyətli rol oynayır.

# KOB-lar dövlət satınalmaları ilə bağlı məlumatlandırılır



Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) sahibkarlar üçün "E-satınalma modelinin tətbiqi" mövzusunda təlimlər keçirilir.

KOBİA-dan bildirilib ki, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin və Elektron Hökumətin İnkişafı Mərkəzinin iştirakı ilə təşkil olunan təlimlərdə kiçik və orta biznes subyektləri dövlət satınalmalarında iştirak prosedurları, www.etender.gov.az vahid internet portalı və ondan istifadə qaydaları barədə məlumatlandırılır.

Təlimlərdə iştirak etməkdə maraqlı olan kiçik və orta biznes subyektləri müvafiq məlumatları (ad, soyad, təmsil etdiyi müəssisə, vəzifəsi və əlaqə telefonu) KOBİA-nın training@smb.gov.azünvanına göndərməklə təlimlərə qatıla bilərlər.

Dövlət satınalmalarında iştirak prosedurları barədə KOB-ların məlumatlandırılması istiqamətində təlimlər və digər maarifləndirici tədbirlər KOBİA tərəfindən davam etdiriləcək.

# Kondisioner idxalı 1,9 dəfə artıb



Bu ilin yanvar-may aylarında Azərbaycana kondisioner idxalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə artıb. Ötən dövrdə ölkəyə 94 min 238 kondisioner idxal edilib. Ölkəyə gətirilmiş kondisionerlərin dəyəri isə 22 milyon 361,9 min ABŞ dolları olub. Beş ayda 29 milyon 743,2 min dollarlıq 1953 ədəd hesablama maşını, blok və qurğusu idxal olunub. Bundan başqa, qeyd olunan dövrdə 72 min 153 paltaryuyan maşın idxal edilib. Bu idxalın dəyəri 14 milyon 522,8 min dollar təşkil edib.

# Kapital Bank ənənəvi "Təhsil avtobusu" layihəsinin rəsmi tərəfdaşıdır






Kapital Bank "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində "Təhsil avtobusu" adlı Yay Məktəbi layihəsinin rəsmi tərəfdaşıdır. Layihə ilə bağlı keçirilən tədbirdə Təhsil Nazirinin müavini Firudin Qurbanov və digər qonaqlar iştirak edib. Layihə 29 iyul 2019-cu il tarixinədək davam edəcək.

"Təhsil avtobusu – Nəsimi" adlı Yay Məktəbi Qusar, Astara, Cocuq Mərcanlı, Qazax, Şamaxı və Bakı şəhərləri üzrə təhsil marafonuna çıxıb. Marafonda iştirak edən gənclər karyera və fərdi inkişaf təlimlərində iştirak edəcəklər.

Qeyd edək ki, "Azərbaycan üçün öyrət" təhsil proqramı ölkənin təhsil strategiyasına uyğun olaraq, keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasını təmin edir.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan Kapital Bank 99 filialı və 13 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərsiniz.

# "AFB Bank"-ın kredit portfeli 12 % artıb

Azərbaycanın aparıcı banklarından olan "AFB Bank" 2019-cu ilin I yarımili üzrə maliyyə hesabatını açıqlayıb.

2019-cu ilin ilk altı ayının nəticələrinə əsasən, bankın aktivləri 423,7 milyon manat təşkil edib.

Bank tərəfindən müştərilərə verilən kreditin həcmi 251,2 milyon manat olub, bu, göstərici keçən ilin eyni dövrü üçün mövcud göstərici ilə müqayisədə 12% çoxdur.

Bu dövrdə "AFB Bank"ın məcmu kapitalı 10% artaraq 75,6 milyon manat olub.

Strategiyada qoyulan məqsədlərə çatmaq üçün bankın kapitalının gələcəkdə də artırılması nəzərdə tutulur.

Ölkənin ən dinamik inkişaf edən banklarından olan «AFB Bank» ASC öz fəaliyyətinə 2009-cu ilin fevral ayında başlamışdır.

Hazırda bank 11 filial və 5 şöbəsi ilə həm hüquqi, həm də fiziki şəxslər üçün müxtəlif bank xidmətlərini təklif edir. Bu xidmətlər barədə daha ətraflı məlumatı www.afb.az saytından, 1545 zəng mərkəzindən və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrindən əldə edə bilərsiniz.